Amirə Cabbar qızı İSMAYILOVA
Azərbaycan Kooperasiya Universiteti, doktorant
E-mail: amire1986@mail.ru
https://doi.org/10.30546/4.71.73001.2024.02.052

BEYNƏLXALQ MALİYYƏ-KREDİT TƏŞKİLATLARI İLƏ SƏMƏRƏLİ ƏMƏKDAŞLIĞIN YOLLARI

Xülasə

Tədqiqatın məqsədi – beynəlxalq maliyyə-kredit təşkilatları ilə əməkdaşlığın spesifik xüsusiyyətləri araşdırılmışdır.

Tədqiqatın metodologiyası – Xarici borcların alınması və onların səmərəli idarə olunması üçün beynəlxalq təcrübələrdən istifadə yollarından bəhs edilmişdir. 01.01.2024-cü il tarixinə qədər Respublikamızın beynəlxalq maliyyə-kredit təşkilatlarına borcu da araşdırılmışdır.

Tədqiqatın tətbiqi əhəmiyyəti – aparılan araşdırma və təhlillər vasitəsilə sistemləşdirilən nəzəri və konseptual müddəalar, irəli sürülən təklif və tövsiyələr respublikamızın iqtisadiyyatında beynəlxalq maliyyə və kredit təşkilatlarının vəsaitlərindən istifadə prosesində, onların cəlb edilməsində, tənzimlənməsində, bu istiqamətdə proqramların hazırlanmasında, proqnozların tərtib olunmasında istifadə oluna bilər

Tədqiqatın nəticəsi – beynəlxalq maliyyə-kredit təşkilatları ilə əməkdaşlığın səmərəliliyinin artırılması ilə ölkəmizin beynəlxalq aləmdə müstəqil siyasət yeritməsinə, xarici təhlükələrdən qorunmasına, həm iqtisadi, həm də maliyyə təhlükəsizliyinin qorunmasına şərait yaradacaqdır.

Tədqiqatın orijinallığı və elmi yeniliyi – beynəlxalq maliyyə-kredit təşkilatları ilə əməkdaşlığın prioritet istiqamətləri müəyyən edilmiş, əməkdaşlığın səmərəliliyinin artırılması istiqamətində təkliflər irəli sürülmüşdür.

Açar sözlər: beynəlxalq maliyyə-kredit təşkilatları, xarici borc, ixrac kreditləri təminatı, iqtisadi proseslərin liberallaşdırılması, daxili maliyyə bazarlarının liberallaşması.

Giriş

Beynəlxalq maliyyə-kredit münasibətləri və onu formalaşdıran sistem mahiyyət etibarı ilə bir çox qayda və qanunların məcmusundan ibarət olmaqla dünya iqtisadiyyatı üçün çox əhəmiyyətli olan vəzifə və funksiyaları yerinə yetirir. Bu qayda və qanunlar həm beynəlxalq kredit təşkilatları tərəfindən, həm də qarşılıqlı əməkdaşlıqda olan ölkələrin dövlət orqanları tərəfindən tənzimlənir. Beynəlxalq iqtisadi münasibətlərdə mövcud olan qaydaların əsas məqsədi beynəlxalq iqtisadi, maliyyə, kredit münasibətləri üzrə əməliyyatların yüngülləşdirilməsindən, asanlaşdırılmasından, sonda tərəflərin hər biri üçün zəruri səmərə səviyyəsini təmin etməkdən ibarətdir. Bu öz növbəsində ölkələrin iqtisadiyyatında dinamizmi təmin etməklə səmərəliliyin yüksəldilməsinə, ölkə iqtisadiyyatının dayanıqlı və davamlı xarakterə malik olmasına, strateji məqsədlərin yerinə yetirilməsinə xidmət edir.

Qeyd olunan məqsədlərin yerinə yetirilməsi prosesində beynəlxalq maliyyə-kredit sistemi üzv ölkələrdə iqtisadiyyatda uzunmüddətli maliyyə münasibətlərinin həyata keçirilməsi üçün etibarlı bünövrə yaratmalı, maliyyə, valyuta, kredit, investisiya əməliyyatları üzrə hər hansı bir məhdudiyyətin olmasına imkan verməməli, hökumət tərəfindən və ya digər orqanlar tərəfindən proteksionist siyasətin aparılmasına yol verməməlidir.

Dünya iqtisadiyyatının inkişaf tarixi göstərir ki, onun ən sabit dövrü İkinci Dünya müharibəsindən 70-ci illərə qədər olmuşdur. Ötən əsrin 70-ci illərindən başlayaraq dünya iqtisadiyyatında maliyyə valyuta sistemi üçün beynəlxalq hesablaşmalarda pozulmalar xarakterik olmuş, bu isə öz növbəsində inflyasiya proseslərini gücləndirərək beynəlxalq valyuta-kredit münasibətlərində ziddiyyətli hallar yaratmışdır.

Beynəlxalq maliyyə-kredit təşkilatları ilə əməkdaşlığın perspektivlərini müəyyən etmək üçün bu münasibətlərin mövcud parametrlərini nəzərdən keçirmək lazımdır. Tərəfimizdən aparılan

araşdırmalar göstərir ki, inkişaf etmiş ölkələrdə beynəlxalq kreditləşmə mühüm xüsusiyyətlərə malik parametrlərin daşıyıcısıdır. Bu parametrlərə aid olan ən mühüm cəhətlərdən biri ondan ibarətdir ki, həmin ölkələr xarici vəsaitlərin əsas hissəsini güzəştli kreditlər və qaytarılması tələb edilməyən subsidiyalar şəklində alırlar. (1, səh 177)

Xarici borcların məqsədəuyğun olaraq qiymətləndirilməsi

Beynəlxalq aləmdə mövcud olan qaydalara görə güzəştli kreditlər və subsidiyalara iddia edən ölkələrin seçilməsi əsasən həmin ölkənin iqtisadi inkişaf səviyyəsi əsasında müəyyən edilir. Bir qayda olaraq güzəştli kreditlər az inkişaf etmiş ölkələr kateqoriyasına aid olanlara verilir. Eyni zamanda dinamik inkişaf edən yeni sənaye ölkələrinin kreditləşdirilməsi çox az bir səviyyədə Qərb ölkələrindən olan borcalanların kreditləşdirilməsi qaydalarından fərqlənir. Lakin nəzərə almaq lazımdır ki, güzəştli kreditlər ölkələrə onlarda mövcud olan siyasi və hərbi vəziyyət də nəzərə alınmaqla verilir.

Beynəlxalq maliyyə-kredit təşkilatları ilə əlaqələrdə mühüm cəhətlərdən biri də ondan ibarətdir ki, müxtəlif inkişaf səviyyəsinə malik olan ölkələrin kreditləşdirilməsində istifadə oluna biləcək vahid bir sistem yoxdur. Təcrübə göstərir ki, hər bir ölkə üçün beynəlxalq kreditləşmə mexanizmi əsasən aşağıdakı əsas göstəricilər nəzərə alınmaqla formalaşır: ölkənin maliyyə, iqtisadi vəziyyətini xarakterizə edən əsas göstəricilərin dinamika səviyyəsi; ölkə iqtisadiyyatında mövcud olan iqtisadi konyunktura; ölkənin ödəməqabiliyyətlilik səviyyəsi; aparıcı donor ölkələrlə əməkdaşlıq səviyyəsi; beynəlxalq maliyyə-kredit təşkilatları ilə münasibətlərin səviyyəsi; ölkənin dünya ssuda kapitalı bazarındakı yeri və rolu; ölkənin beynəlxalq maliyyə institutları ilə münasibətlərdəki reytinqi və s.

Beynəlxalq maliyyə-kredit təşkilatlarının daha bir spesifik cəhəti ondan ibarətdir ki, əsasən onların fəaliyyəti nəticəsində formalaşan müasir dünya kredit sistemi dünya təsərrüfatına dərindən inteqrasiya olunmuş inkişaf etmiş ölkələrin iqtisadiyyatlarında formalaşan spesifik şərait və tələblərə uyğunlaşdırılmışdır. Belə bir vəziyyət həm rəsmi kreditləşmə proseslərində, həm subsidiyaların verildiyi hallarda, həm də digər mənbələrdən kreditləşmə aparıldığı hallarda özünü göstərir.

Beynəlxalq maliyyə-kredit təşkilatları ilə əməkdaşlığın daha bir spesifik xüsusiyyəti ondan ibarətdir ki, kreditlərin əsas hissəsini və eləcə də subsidiyaları ölkələr həm beynəlxalq maliyyə-kredit təşkilatlarından, inkişaf etmiş ölkələrdən, eləcə də dünya ssuda kapitalı bazarında donor kimi fəaliyyət göstərən həm ölkələrdən, həm də maliyyə institutlarından alırlar. Bu proses beynəlxalq kreditləşməni həm inkişaf etmiş ölkələrin, həm də beynəlxalq maliyyə-kredit təşkilatlarının mərkəz rolunu oynamaqla ölkələrin kreditləşdirilməsi mexanizminin formalaşmasına xidmət edir.

Araşdırmalar göstərir ki, beynəlxalq kreditlərin və subsidiyaların çox az bir hissəsi inkişaf etmiş ölkələr arasında qarşılıqlı kreditləşmə və yardım mexanizmi çərçivəsində fəaliyyətdə olur.

Beynəlxalq maliyyə-kredit təşkilatları ilə əməkdaşlıq prosesinin səmərəliliyinin yüksəldilməsinin mühüm vasitələrindən biri də əməliyyatlar üzrə sığorta sisteminin tətbiq olunmasıdır. Belə ki, bu və ya digər ölkənin ödəmə qabiliyyətini itirdiyi halda baş verə biləcək risklərin səviyyəsini azaltmaq üçün kreditlərin sığortalanması sistemi tətbiq olunur. Bu sistemin forması belədir: ixtisaslaşmış sığorta şirkətləri ixrac kreditləri üzrə riskləri öz üzərinə götürür, borcalan ölkələrin ödəmə qabiliyyətində bu və ya digər səbəbdən problem yarandığı halda onların borc öhdəlikləri kreditorlara ödənir. (2, səh 17).

Təcrübə göstərir ki, ayrı-ayrı ölkələrdə ixrac kreditlərinin təminatı məsələləri müxtəlif orqanlar tərəfindən həyata keçirilir. Belə ki, Böyük Britaniyada ixrac kreditlərinin təminatı **İxrac kreditlərinin təminatı Dövlət Departamenti** tərəfindən icra olunur. Onlar ixracatçılara dəyə biləcək zərərlərin 85-100%-ni ödəmək kimi öhdəliyi götürürlər.

ABŞ-da belə bir funksiyanı **İxrac-İdxal bankı** yerinə yetirir. Bu bank dəyə biləcək zərərin 100% həcmdə ödənilməsi öhdəliyini götürür. Fransada isə analoji funksiyanı **Xarici iqtisadi əlaqələr üzrə Fransa Sığorta Şirkəti** yerinə yetirir. Bu şirkət də beynəlxalq münasibətlərdə yaranan zərərin 100% həcmdə ödənişini üzərinə götürür. İqtisadi cəhətdən inkişaf etmiş Almaniyada analoji funksiyanı iki təşkilat, o cümlədən **“Hermes” Səhmdar Cəmiyyəti** və **İxrac kreditləri**

üzrə Nazirliklərarası Komitə yerinə yetirir. Bu təşkilatlar beynəlxalq əlaqələrdə yüksək reytinqi olmaqla dəyə biləcək zərərlərin tam həcmdə ödənilməsi öhdəliyini qəbul edirlər.

Beynəlxalq maliyyə-kredit münasibətləri üzrə əməliyyatların sığortalanması sisteminin əhəmiyyəti ondan ibarətdir ki, kreditin ixracatçısı sığorta ödənişləri üzrə öhdəliyi qəbul edən təşkilatlardan həmin ödənişlər üzrə vəsaitlərin vaxtında qaytarılması haqqında təminat alır. Məhz bu hal onlara çox rahat şəkildə əməliyyatları aparmağa imkan verir. Əgər idxalçıların fəaliyyətində ödəmə qabiliyyətinin itirilməsi halı baş verərsə, bu halda ixracatçı ona çatası vəsaitləri ödəniş üzrə təminatı öz üzərinə götürmüş təşkilatdan alır. Həmin təşkilat isə sonda problemi idxalçı ilə həll edir.

Ötən əsrin 50-ci illərinin sonundan başlayaraq beynəlxalq aləmdə ixracın maliyyələşdirilməsinin yeni üsulu tətbiq olunmağa başlamışdır. Bu, iri kapitalist ölkələrinin bankları tərəfindən xarici borcalanların tələblərinin bank kreditləşməsi vasitəsilə həyata keçirilməsi olmuşdur. Bu üsulun tətbiq olunmağa başlaması ilə bank kreditləşməsi ilə digər növ kreditləşmənin funksiyalarının özünəməxsus bölgüsü baş vermişdir. Bank kreditləşməsi bir qayda olaraq orta və iri layihələrin uzunmüddətli kreditləşməsinə, ikincisi isə qısamüddətli, böyük olmayan məbləğlərdə ifadə edilən sövdələşmələrin icra olunmasına yönəldilir.

Araşdırmalar göstərir ki, müasir dövrdə həm qlobal, həm də milli səviyyədə maliyyə bazarlarının institusional strukturunda əhəmiyyətli dəyişiklik baş vermişdir. Belə bir bazarlarda son dövrlərdə kommersiya banklarının rolu zəifləmiş, əksinə, investisiya banklarının rolu artmışdır. Bu əsasən onların spesifik əməliyyatları ilə bağlıdır.

Ötən əsrin 90-cı illərindən başlamış maliyyə xidmətləri bazarında yaranan, güclənən iki mühüm meyil BVF-nin materiallarında öz əksini tapmışdır. Həmin meyillərə aşağıdakılar aiddir:

- ənənəvi bank institutlarının müxtəlif növ maliyyə xidmətləri göstərən maliyyə şirkətlərinə transformasiya olunması. Hal-hazırda banklar çox fəal surətdə özləri üçün yeni fəaliyyət sferasına qoşularaq özlərinin maliyyə bazarında investisiya, sığorta və başqa əməliyyatlarını aparan strukturlarını formalaşdırırlar. Onlar aktivlərindən səmərəli şəkildə istifadə edərək beynəlxalq əməliyyatlara qoşulurlar;
- sərbəst pul vəsaitlərinin cəlb olunması və yerləşdirilməsi uğrunda bank və qeyri-bank maliyyə institutları arasında rəqabətin güclənməsi. Məlum olduğu kimi sərbəst pul vəsaitləri maliyyə bazarı iştirakçılarının öz fəaliyyətlərini genişləndirmək üçün əsas mənbələrdən biridir. Onun uğrunda rəqabət mübarizəsinin güclənməsi sonda bazarın ümumi inkişafını şərtləndirir.

Məlum olduğu kimi beynəlxalq maliyyə kredit təşkilatları ilə əməkdaşlığın ən mühüm istiqamətlərindən biri də **xarici borcların idarə olunmasının səmərəli bir sisteminin** yaranmasıdır. Təcrübə göstərir ki, ölkənin daxilində iqtisadi sabitliyin qorunması üçün vacib şərtlərdən biri də xarici borcun formalaşmış normalar çərçivəsində olmasıdır. Bu səbəbdən də xarici borcun həddən artıq olmasına yol vermək olmaz.

Beynəlxalq təcrübədən məlum olduğu kimi **xarici borcun idarə edilməsi sisteminin** mövcudluğu ölkə üçün xarici borcun strukturunun, həcminin tənzimlənməsi üçün zəruri olan hüquqi bazanı, eləcə də səmərəli fəaliyyət üçün inzibati, iqtisadi və digər tədbirlərin zəruri aspektlərini formalaşdırır. Eyni zamanda nəzərə almaq lazımdır ki, bu sistemin mövcud olması mühüm bir prinsipə əsaslanır. Bu prinsipin mahiyyəti ondan ibarətdir ki, ölkə iqtisadiyyatında yığımları tamamlayan, eləcə də borclu dövləti xarici valyuta ilə təmin edən xarici borclar bütün hallarda iqtisadi artımın yüksək və sabit templərinin təmin edilməsinə yönəldilməlidir.

Bunun üçün alınan borclar gələcəkdə də xarici valyutanın böyük axınını təmin etməlidir ki, xarici borc vaxtında xidmət göstərsin. Yəni bununla bağlı elə vəziyyət yaranmalıdır ki, xarici borcun artım tempi ölkənin həmin borcları qaytarmaq imkanlarından üstün olmasın.

Təcrübə göstərir ki, xarici borclarla əlaqədar olaraq böhran vəziyyəti o zaman yaranır ki, həmin borclar ölkə iqtisadiyyatında istehsal potensialını yaratmır, onu artırmır və digər məqsədlər üçün istifadə olunur. Digər məqsədlər dedikdə sosial proqramların maliyyələşməsinə və eləcə də tədiyyə balansı defisitinin bağlanmasına yönəldilir. Hər iki halda yeni dəyər yaradılmadığından, istehsal potensialına müsbət təsir etmədiyindən bu məsələdə problem yaranır.

Beynəlxalq maliyyə-kredit təşkilatları ilə əməkdaşlıqda perspektiv üçün zəruri olan məsələlərdən biri də respublika iqtisadiyyatı üçün yeni kreditlərin alınmasıdır. Belə kreditlərin alınması perspektivdə strateji problemlərin həll olunmasına, Azərbaycanın dünya maliyyə bazarlarında fəaliyyətinin genişlənməsinə zəmin yaradır. Eyni zamanda bu perspektivdə ölkəmizin dünya maliyyə bazarına sərbəst çıxışını asanlaşdırar, avrobondların yerləşdirilməsinə, eləcə də xarici banklarla və beynəlxalq maliyyə-kredit təşkilatları ilə sindikatlaşdırılmış kreditlərin verilməsinə uyğun şərait yaradır.

Beynəlxalq maliyyə-kredit təşkilatları ilə əlaqələrin səmərəliliyinin artırılması üçün mühüm məsələlərdən biri də **xarici borcların nəzarətsiz artımına yol verilməməsidir.** Xarici borcun nəzarətsiz artımı bu sistemin tənzimlənmə parametrini pozur, ödəmə qabiliyyəti böhranı yaradır, onun səviyyəsi artdıqca iqtisadi problemlər yolverilən çərçivələri aşır. Belə vəziyyətin qarşısının alınması üçün dünya təcrübəsində xarici borcların cari monitorinqi və nəzarəti sistemi tətbiq olunur. Bu sistem Xarici Borcların İdarə edilməsi Sisteminin tərkib hissəsi olmaqla yüksək əhəmiyyətə malikdir. Bu sistem müstəqil iqtisadi nəzarət orqanı kimi fəaliyyət göstərə bilər. Belə bir sistemin tətbiq olunması xarici borcun zəruri göstəricilərinin sistematik olaraq monitorinqinin aparılmasını, təhlilin təşkilini təmin etməlidir. Bu təhlil və monitorinq vasitəsilə əldə olunmuş nəticələr əsasında gələcək dövr fəaliyyəti üçün tövsiyələr hazırlanmalı, aidiyyatı orqanlara düzgün qərarlar hazırlanması üçün təqdim olunmalıdır. Belə bir yanaşma xarici borclardan səmərəli istifadə etmək üçün düzgün və operativ qərarların qəbul edilməsi üçün baza yarada bilər.

Təhlil edilən problemin həlli istiqamətində, yəni xarici borcun idarə edilməsində mühüm məsələlərdən biri də xarici borcun alınması, istifadəsi və borcun strukturu üzərində nəzarətin həyata keçirilməsidir. Belə bir nəzarətə aşağıdakı vacib məsələləri aid etmək olar: borcun alınması üçün zəruri mühitin olması; borcun alınması şərtləri; borc üzrə müəyyən edilmiş faizlərin dərəcələri; borc öhdəliyinin müddəti; borcun qaytarılma şərtləri; borcun təmin olunma şərtləri; borcun məqsədləri; borc üzrə yaranan milli öhdəliklərlə təsbit olunmuş və ya üzən məzənnənin faiz dərəcələri arasındakı tarazlıq səviyyəsi; borc öhdəliklərinin yerinə yetirilməsi prosesində istifadə edilən valyuta növləri; öhdəliklər üzrə potensial risklərin bölüşdürülməsi və s.

Beynəlxalq maliyyə-kredit təşkilatları ilə əməkdaşlığın səmərəliliyinin yüksəldilməsinin mühüm istiqamətlərindən biri də **iqtisadi proseslərin liberallaşdırılmasıdır.** Bu prosesin mühüm elementlərindən biri **daxili maliyyə bazarlarının liberallaşmasıdır**. Lakin, nəzərə almaq lazımdır ki, liberallaşmanın güclənməsi nəticəsində kapital axınları üzərindən nəzarətin götürülməsi ölkə iqtisadiyyatında irimiqyaslı valyuta möhtəkirliyinə yol açır. Belə vəziyyətdə milli bank sistemi zəif olarsa, bu halda bu sistem böyük kapital axınlarının xaricə axınına dözə bilmir. Yaranmış vəziyyətlə bağlı olaraq Mərkəzi Bank ölkəyə kapital idxalına aid məhdudiyyətləri ləğv edərsə bu, iqtisadiyyatda bir sıra mənfi meyillər yarada bilər. Yaranan mənfi meyillər ölkənin xarici borcunun vəziyyətinə təsir etməklə tədiyyə balansının həssaslığını artırır. Beləliklə milli maliyyə bazarının liberallaşmasının mənfi meyilləri bu bazara möhtəkir və qeyri-sabit kapitalın axmasına səbəb olur.

Qeyd olunanları nəzərə alaraq demək olar ki, ölkəmizdə perspektivdə xarici borcların idarə olunması siyasətinin əsas istiqaməti qısamüddətli borcların həcminin və strukturunun düzgün müəyyən olunmasından, milli maliyyə bazarını qlobal bazarlarla birləşdirən (xüsusən də qiymətli kağızlar bazarını) maliyyə kanallarının səmərəliliyinin təmin edilməsindən və s. ibarət olmalıdır. Dünya təcrübəsinə uyğun olaraq ölkə iqtisadiyyatının iqtisadi təhlükəsizliyinin təmin olunması baxımından qeyd edilən kateqoriyaya aid xarici borclar ümumi milli borcların 10% səviyyəsindən artıq olmamalıdır.

Xarici borcların idarə edilməsi sisteminin formalaşdırılması hər şeydən əvvəl onun qanunvericilik bazasının işlənib hazırlanmasından və qəbul edilməsindən başlayır. Hal-hazırda ölkəmizdə xarici borcların idarə olunması istiqamətində 1995-ci ildə qəbul edilmiş yalnız bir “Dövlət borcu haqqında” Azərbaycan Respublikasının Qanunu mövcuddur. O zamandan keçən dövr ərzində yaranmış zərurətə görə yaxşı olardı ki, təkcə dövlət borcu deyil, onunla bağlı digər məsələləri əhatə

edən qanunlar paketi hazırlanıb qəbul edilərdi. Lakin nəzərə alsaq ki, hal-hazırda ölkəmizin sosial-iqtisadi inkişafında (beynəlxalq münasibətlərdə) dövlət sektoru dominant rolunu oynayır, bu halda birinci növbədə dövlət borcu haqqında daha təkmil qanun qəbul olunmasına ehtiyac vardır. Belə bir qanun həm dövlət borcları, həm də dövlətin təminat verdiyi borclar üzrə koordinasiya mərkəzi rolunu oynayan Maliyyə Nazirliyinin funksiyalarını dəqiq müəyyən etməlidir. Onlara aşağıdakıları aid etmək olar:

- beynəlxalq kreditlərə zərurət səviyyəsinin müəyyən edilməsi;
- beynəlxalq kreditlərin yönəldiləcəyi sahələrin, sektorların, layihələrin müəyyən edilməsi;
- kredit müqavilələrinin müddət və şərtlərinin müəyyən edilməsi;
- beynəlxalq maliyyə bazarlarından xarici borclar formasında vəsaitlərin cəlb olunması şərtlərinin öyrənilməsi;
- dövlətin xarici borclarının təkrar maliyyələşməsi imkanlarının qiymətləndirilməsi;
- yeni xarici borcların təmiz saldosunun dövlət borcları limitinə nisbətinə nəzarət olunmaqla uyğunluğunun saxlanması;
- xarici dövlət borclarının alınmasının illik dövlət büdcəsi qanununun tələblərinə uyğunluğunun təmin edilməsi;
- xarici borcların idarə edilməsi, xidmətin təşkil edilməsi və onların qaytarılmasının təmin edilməsi.

Araşdırmalar göstərir ki, beynəlxalq maliyyə-kredit təşkilatları ilə əlaqələrin səmərəliliyinin yüksəldilməsi üçün yuxarıda qeyd edilənlərin icra olunmasına ehtiyac vardır. Onların yerinə yetirilməsi milli miqyasda ölkədə iqtisadi sabitliyin yaranmasına, qlobal miqyasda isə ölkənin geoiqtisadi mövqeyinin möhkəmləndirilməsinə səbəb olar.

Tərəfimizdən aparılan araşdırma və təhlillər göstərir ki, respublikamızın beynəlxalq maliyyə-kredit təşkilatlarına borcu 01.01.2024-cü il tarixə 3556,1 mln $ olmuşdur. Strukturuna nəzər saldıqda görürük ki, bu borcların 56,36%-i və ya 1933,2 mln $-ı Asiya İnkişaf Bankına, 27%-i, yəni 959,8 mln $-ı Dünya Bankına (o cümlədən 159,5 mln $-ı Beynəlxalq İnkişaf Assosiasiyasına, 800,3 mln $-ı isə Beynəlxalq Yenidənqurma və İnkişaf Bankına aiddir), 8,1%-i və ya 287,9 mln $-ı İslam İnkişaf Bankına, 7,7%-i və ya 275,1 mln $-ı Avropa Yenidənqurma və İnkişaf Bankına, 2,84%-i və ya 100 mln $-ı Asiya İnfrastruktur İnvestisiya Bankına olan borclardan ibarətdir. (3)

Ölkəmizin beynəlxalq maliyyə-kredit təşkilatlarından aldığı borcların məbləği getdikcə azalır. Bunun ən mühüm səbəblərindən biri ondan ibarətdir ki, ölkəmizin iqtisadi gücü və qüdrəti artdıqca xarici kreditlərə ehtiyacı azalır.

Beynəlxalq maliyyə-kredit təşkilatları ilə əməkdaşlığın səmərəliliyinin yüksəldilməsi üçün mühüm məsələlərdən biri də **investisiya layihələrinin maliyyələşdirilməsi üçün alınan xarici kreditlərin bölgüsünün düzgün və səmərəli qaydasının** müəyyən edilməsidir. (4, səh 4).

Bu növ kreditlər ölkənin kredit təşkilatları arasında müsabiqə yolu ilə bölüşdürülməlidir. Beynəlxalq təcrübəyə uyğun olaraq belə müsabiqədə xarici kreditlərin bölüşdürülməsində və istifadəyə nəzarətdə koordinator rolu oynayan Maliyyə Nazirliyinə daha yüksək səmərəlilik göstəricilərinə malik olan biznes planı və yüksək gəlirli investisiya layihəsini təqdim edənlərə üstünlük verilməlidir. Bu halda kreditlər müəssisə və təşkilatlara etibarlı girov təminatı əsasında verilməlidir.

Məqsədəuyğun bir hal olardı ki, “Dövlət borcu haqqında” Azərbaycan Respublikasının Qanununa ölkənin özəl sektoruna cəlb edilən xarici kreditlər üzrə dövlət qarantiyasının, təminatının verilməsi haqda xüsusi bölmə əlavə edilərdi. Dövlət təminatı həmin kreditlər üzrə müəssisələrin uyğun səviyyədə biznes planı olduqda, kredit qabiliyyətliliyi təmin olunduqda, eyni zamanda kreditlərin həcmi, müddəti və digər şərtləri ölkədə aparılan iqtisadi siyasətin tələblərinə uyğun olduqda verilə bilər.

Beynəlxalq təşkilatlarla əməkdaşlıq istiqamətində səmərəliliyin artırılmasının mühüm yollarından biri də **təminatsız borclar üzərində nəzarətin forma və üsulların, eləcə də prosedurların müəyyən edilməsidir**. Dünya təcrübəsində belə bir nəzarət valyuta nəzarəti formasında həyata keçirilir, eyni zamanda bu halda xarici kredit qeydiyyatı alınmır, qeydiyyat yalnız kreditlərin

limitləşdirilməsi qaydasında aparılır, paralel olaraq xarici borcların cəlb edilməsinə icazələrin alınması yolu ilə həll edilir.

Ölkəmizdə bu nəzarət, yəni təminatsız dövlət borclarının üzərində nəzarət Mərkəzi Bank tərəfindən həyata keçirilir. Bu nəzarət Mərkəzi Bankın funksiyasına aid olmaqla reallaşdırılır ki, onun da mahiyyəti ondan ibarətdir ki, o hər şeydən əvvəl uçot xarakteri daşıyır və onun məqsədi təminatsız xarici borcların ümumi məbləğini müəyyən edərək ondan səmərəli istifadəni təmin etməkdən ibarətdir.

Hal-hazırda qüvvədə olan qanuna görə rezidentlərə müəyyən bir dövrə verilən, müəyyən məbləğdə olan, məsələn yüz min dollardan az olmayan və 180 gündən artıq müddətə verilən xarici kreditlər qeydiyyata alınır. Burada əsas məqsəd həmin kreditlərdən səmərəli şəkildə istifadə olunmasından, iqtisadiyyatda yeni dəyər yaradılmasından və s. müsbət meyillərin təmin edilməsindən ibarətdir.

Araşdırmalar göstərir ki, beynəlxalq kapitalın hərəkətində çoxsaylı xarici maliyyələşmə alətləri mövcuddur. İnkişaf etmiş ölkələr bir qayda olaraq xarici maliyyələşmə resurslarını iqtisadi inkişafın sürətlənməsinə yönəldirlər. Belə resurslar həm iqtisadi dinamikanı sürətləndirir, həm daxildə yığımların artmasına səbəb olur, həm də sosial rifahın yaxşılaşmasını şərtləndirir.

Xarici maliyyələşmə mənbələrinə olan tələbat həcm və məqsədlərinə, eləcə də digər parametrlərinə görə fərqləndiyi kimi, həmin resurslar da tipi və mənbələrinə görə fərqlənirlər. Məlum olduğu kimi xarici maliyyələşmə alətlərinin iki tipi mövcuddur. Onlardan birincisi ölkənin borc öhdəliklərini artıran borc alətləri, digəri isə borc öhdəliyi yaratmayan qeyri-borc alətləridir.

Təcrübədən məlum olduğu kimi qeyri-borc alətləri bir qayda olaraq **subsidiyalardan** ibarət olur. Subsidiyalar ölkələrə həm beynəlxalq maliyyə-kredit təşkilatları tərəfindən, həm ayrı-ayrı dövlətlər tərəfindən, həm də ayrı-ayrı investorlar tərəfindən inkişafı dəstəkləmək məqsədilə rəsmi kömək çərçivəsində təqdim edilir. Beynəlxalq təcrübədən məlum olduğu kimi subsidiyalar daha kasıb ölkələrə iqtisadiyyatın inkişaf etdirilməsi məqsədilə kömək formasında verilən vəsaitləri əsasən infrastruktur layihələrin icra olunmasına, sənayenin inkişaf etdirilməsinə, tədiyyə balansının tənzimlənməsinə, idxal əmtəələrinin, o cümlədən həyati əhəmiyyətə malik olan mal və xidmətlərin haqqının ödənilməsinə və s. yönəldilir.

Bəzi hallarda isə bu tip vəsaitlər sənayenin ayrı-ayrı sahələrinin, eləcə də kənd təsərrüfatı istehsalının inkişaf etdirilməsinə, həmçinin infrastruktur layihələrin reallaşdırılmasına yönəldilir. Bu formada təqdim edilən subsidiyalar inkişaf etməkdə olan və daha yoxsul ölkələrdə fərqli istiqamətlərdə və fərqli məqsədlərlə istifadə olunur.

Dünya təcrübəsindən məlumdur ki, investorlar öz vəsaitlərini daha çox gəlir gətirən layihələrə yatırmağa çalışırlar. Belə olan halda investor bilavasitə layihədə iştirak edərək investisiya ilə bağlı riskləri öz üzərinə götürür. İri investorlar bir qayda olaraq investisiya fəaliyyəti üçün iqtisadi inkişafında pozitiv perspektivlər olan ölkələri, eləcə də liberal investisiya siyasəti aparan ölkələri, həmçinin xarici investisiyaları qoruyan ölkələri seçirlər.

Praktiki fəaliyyətin nəticələri göstərir ki, investisiya fəaliyyəti ilə bağlı olaraq borc alətləri borcalan ölkə tərəfindən kreditlərin qaytarılması, faizlərin ödənilməsi ilə bağlı olaraq müqavilə öhdəliklərini öz üzərinə götürməsi ilə birbaşa bağlıdır. Bir qayda olaraq borcalan tərəf itkilər üzrə riskin ən zəif səviyyəsinə məruz qalır, çox hallarda isə ümumiyyətlə risklə üzləşmirlər. Bir çox hallarda investisiya layihəsi üzrə texnologiyaların və digər əmtəələrin alınması birbaşa maliyyələşmə mənbəyinə aid olur.

Beynəlxalq investisiya proseslərinin iştirakçısı olan ölkələrin maliyyə imkanları ölkənin iqtisadi inkişaf səviyyəsindən, makroiqtisadi göstəricilərin dinamika səviyyəsindən, ölkənin maliyyə potensialından, iqtisadiyyatın rəqabətqabiliyyətliliyindən, kredit qabiliyyətindən, aparılan iqtisadi siyasətin prioritetlərindən və s. asılı olur.

Beynəlxalq maliyyə-kredit təşkilatları ilə əməkdaşlıq prosesində borcalan ölkə tərəfindən tərəfdaşla birgə qarşılıqlı razılaşma yolu ilə maliyyə alətinin formasının seçilməsi gələcək fəaliyyət üçün istisnasız xüsusi əhəmiyyətə malik qərardır. Çünki fəaliyyət üçün seçilə biləcək hər bir alət

borcalan üçün fərqli maliyyə və hüquqi nəticələr yaradırlar.

Beynəlxalq maliyyə-kredit təşkilatlarından alınan borclar vasitəsilə çox hallarda sənayeyə aid layihələr və eləcə də infrastrukturun yaradılması və təkmilləşdirilməsi layihələri maliyyələşdirilir. Onlar bir çox hallarda bir-biri ilə əlaqədar ola bilərlər. Kapital bazarı vəsaitləri vasitəsi ilə, məsələn istiqrazlar vasitəsi ilə tədiyyə balansı ilə əlaqədar problemlərin həlli üzrə ayrı-ayrı istiqamətlərdə layihələr maliyyələşdirilir. Eyni zamanda belə vəsaitlərdən konkret investisiya layihələrinin maliyyələşdirilməsində də istifadə olunur.

Nəticə

Qeyd olunanları nəzərə alaraq demək olar ki, ölkəmizdə xarici investisiya axınlarının başladığı ilk dövrdə neft və qazın ixracının böyük həcmdə olduğu zaman Azərbaycan tərəfi həmin resursların axınlarının artırılması və onların lazım olan ölkələrə çatdırılması üçün güclü struktur yaratmalı idi. Dünya Bankı ölkəmizdə bu vəzifənin yerinə yetirilməsini həll etdi. Belə ki, Beynəlxalq Maliyyə Korporasiyası neft kəmərlərinin çəkilişini, Beynəlxalq İnkişaf Assosiasiyası isə köhnə müəssisələrin modernləşdirilməsini, resursların çıxarılmasını, mühafizəsini və istifadəsini təmin edə biləcək yeni zəruri binaların tikintisini həyata keçirdilər.

Əsrin Müqaviləsi bağlanarkən ölkəmizin və eləcə də müqavilənin iştirakçıları olan beynəlxalq maliyyə-kredit təşkilatlarının qarşısında mühüm bir problem dururdu. Onun mahiyyəti yaxın 20-25 il ərzində resurslardan səmərəli istifadə edərək, qeyri-neft sektorunun güclü, dinamik inkişaf etdirilməsindən, yoxsulluq probleminin aradan qaldırılmasından və gələcək nəslin həyat tərzinin yaxşılaşması üçün təminat yaratmaqdan və s. ibarət idi. Bunlar isə qarşılıqlı əməkdaşlığın səmərəliliyinin yüksəldilməsi istiqamətlərindən biri idi. Bu istiqamətdə əməkdaşlığın inkişaf etdirilməsi, fikrimizcə, bu gün də aktual olaraq qalır.

Beynəlxalq maliyyə-kredit təşkilatları ilə əməkdaşlığın səmərəliliyini artıran mühüm istiqamətlərdən biri də **Dünya Bankı qrupunun** fəaliyyəti ilə bağlıdır. Belə ki, Dünya Bankı qrupu ölkəmizdə iqtisadi siyasətin prioritetlərindən olan yoxsulluğun aradan qaldırılması ilə bağlı uzunmüddətli proqramların yerinə yetirilməsini, qeyri-neft sektorunun inkişaf etdirilməsini, iqtisadiyyatın diversifikasiyası prosesinin genişləndirilməsini və sürətləndirilməsini, makroiqtisadi sabitliyin qorunmasını, səhiyyə sisteminin təkmilləşdirilməsini, təhsil sisteminin beynəlxalq standartlar səviyyəsinə qaldırılmasını, xidmət infrastrukturunun yeni tələblərə uyğunlaşdırılmasını, əhalinin sosial təminatının yaxşılaşdırılmasını, ekoloji dayanıqlığın qorunmasını dəstəkləyərək maliyyələşmələr aparmış və aparmaqda davam edir. Bu əməkdaşlığın davam etdirilməsi ölkəmizin iqtisadiyyatının dayanıqlı və davamlı inkişaf etməsi üçün mühüm amillərdən birinə çevrilmişdir. Bu baxımdan da perspektivdə bu amildən istifadə olunması ölkəmiz üçün öz səmərəsini verəcəkdir.

Məlum olduğu kimi respublikamız təbii resurslarla zəngin olmaqla yanaşı, uzun tarixi olan elmi, tədqiqat, sənaye, mədəni və s. ənənələrə malikdir. Eyni zamanda ölkəmiz iri neft, qaz və digər minerallarının ixracatçısına çevrilmişdir. 1994-cü ildə “Əsrin müqaviləsi”ni bağlayaraq külli miqdarda xarici investisiyaları cəlb edən ölkəmiz geniş imkanlar yaradaraq ərzaq və istehlak mallarının, eləcə də kimya məhsullarının iri istehsalçısına çevrilmişdir.

İqtisadiyyatda əsas istiqaməti azad iqtisadiyyatın inkişafına yönəldərək ölkəmiz öz istehlak bazarını həm xarici ölkələrə, həm iri xarici şirkətlərə, həm də qonşu ölkələrin istehlakçılarına açıq elan etdi. Bu vəziyyət xarici tərəfdaşları, xarici iri şirkətlərə, beynəlxalq maliyyə-kredit təşkilatlarına özlərinin fəaliyyət miqyaslarını genişləndirməyə, rəqabətqabiliyyətliliklərini gücləndirməyə imkan yaratmışdır.

Azərbaycan Respublikası üçün qeyd edilən vəziyyət milli iqtisadiyyatın dünya iqtisadiyyatına, qlobal iqtisadiyyata inteqrasiyasını yaratmış, potensial investorlar üçün rəqabətqabiliyyətli məhsullar istehsal edərək öz mövqeyini sübut etmiş, XXI əsrin əvvəllərindən iri neft və qaz ixracatçısına çevrilmişdir.

Beynəlxalq maliyyə-kredit təşkilatları ilə əməkdaşlığın səmərəliliyinin artırılması üçün yuxarıda qeyd olunan istiqamətlərdə fəaliyyətin genişləndirilməsi ölkəmizin həm geosiyasi, həm geoiqtisadi

məkanda mövqeyinin daha da möhkəmlənməsinə gətirib çıxaracaq. Bu isə öz növbəsində ölkəmizin beynəlxalq aləmdə müstəqil siyasət yeritməsinə, xarici təhlükələrdən qorunmasına, həm iqtisadi, həm də maliyyə təhlükəsizliyinin qorunmasına şərait yaradacaqdır.

16 fevral 2024-cü ildə "Fiç Reytingz" (Fitch Ratings - London – 16.02.2024) beynəlxalq kredit reytinq agentliyi Azərbaycan Respublikasının uzunmüddətli yerli və xarici valyutada reytinqini "BB+" səviyyəsində bir daha müsbət proqnozla təsdiqləmişdir. (5)

Agentliyin hazırladığı hesabatda qeyd olunur ki, Azərbaycanın güclü fiskal mövqeyi, aşağı suveren borcu, yüksək neft və qaz qiymətləri nəticəsində yığılmış iri həcmdə xarici valyuta aktivləri ölkənin reytinq üzrə proqnozunun artırılmasını şərtləndirib. Bütün bunlar dövlət başçısı cənab İlham Əliyevin əvəzolunmaz siyasətinin bariz nümunəsidir.

ƏDƏBİYYAT

1. Вавилов А.П. Государственный долг: уроки кризиса и принципы управления. - М.:, Городец - издат" 2021, 405 стр.
2. Вавилов А.П. Внутренние проблемы внешнего долга. Коммерсант журнал. 2020. № 59, стр 15-24.
3. Aron R. Une Sosiologie des relations inbernationales Revue francaise de sosiologie. 1963. Vol. iv. N3
4. https://www.worldbank.org
5. https://www.fitchratings.com

Амира Джаббар гызы Исмаилова
Азербайджанский Университет Кооперации, докторант
E-mail: amire1986@mail.ru

С международными финансово-кредитными организациями пути эффективного сотрудничества

Резюме

Цель исследования – рассмотреть особенности сотрудничества с международными финансово-кредитными организациями.

Методология исследования – обсуждались способы использования международной практики приобретения внешних долгов и эффективного управления ими. Также исследована задолженность нашей республики перед международными финансово-кредитными организациями до 01.01.2024 года.

Прикладная значимость исследования – теоретические и концептуальные положения, систематизированные в результате проведенных исследований и анализа, предложенные предложения и рекомендации могут быть использованы в процессе использования средств международных финансово-кредитных организаций в экономике нашей республики, при их привлечении. и регулирования, при подготовке программ в этом направлении и при составлении прогнозов.

Результат исследования - за счет повышения эффективности сотрудничества с международными финансово-кредитными организациями, это создаст условия для реализации нашей страной независимой политики в международном мире, защитит ее от внешних угроз, а также защитит как экономическую, так и финансовую безопасность.

Оригинальность и научная новизна исследования – определены приоритетные направления сотрудничества с международными финансово-кредитными организациями, выдвинуты предложения в целях повышения эффективности сотрудничества.

Ключевые слова: международные финансово-кредитные организации, внешний долг, гарантирование экспортных кредитов, либерализация экономических процессов, либерализация внутренних финансовых рынков.

Amira Jabbar Ismailova
Azerbaijan University of Cooperation, PhD student
E-mail: amire1986@mail.ru

With international financial and credit institutions ways of effective cooperation

Summary

The purpose of the research - is to examine the specific features of cooperation with international financial credit organizations.

Methodology of the research – ways of using international practices for acquiring foreign debts and their effective management were discussed. The debt of our Republic to international financial credit organizations until 01.01.2024 was also investigated.

Application importance of the research - the theoretical and conceptual propositions systematized through the conducted research and analysis, proposed proposals and recommendations can be used in the process of using the funds of international financial and credit organizations in the economy of our republic, in their attraction and regulation, in the preparation of programs in this direction, in the preparation of forecasts.

The result of the research - by increasing the efficiency of cooperation with international financial credit organizations, it will create conditions for our country to implement an independent policy in the international world, protect it from foreign threats, and protect both economic and financial security.

The originality and scientific innovation of the research - the priority directions of cooperation with international financial and credit organizations have been determined, suggestions have been put forward in order to increase the efficiency of cooperation.

Key words: international financial credit organizations, foreign debt, guarantee of export credits, liberalization of economic processes, liberalization of domestic financial markets.